# Azərbaycan nefti büdcə proqnozunu 30 dollar üstələyib

indicə




Neftin qiyməti kəllə-çarxda - Azərbaycan bu böhrandan həm qazana, həm də itirə bilər

2026-cı ilin ilk 6 ayında Azərbaycanın reallaşmış neftinin orta qiyməti 94.5 ABŞ dolları/barel təşkil edib.

Ölkənin yerli saytlarının məlumatına görə, bunu sentyabrın 15-də Mərkəzi Bankın (AMB) Statistika departamentinin direktoru **Samir Nəsirov** tədiyə balansının açıqlanmasına həsr olunmuş brifinqdə bildirib.

Onun sözlərinə görə, **bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 33 faiz artıb.**

AMB rəsmisi qeyd edib ki, hesabat dövründə Azərbaycan qazının 1000 kubmetrinin orta reallaşmış qiyməti isə 313 ABŞ dolları olub.

Vurğulanıb ki, **qazın orta qiyməti də ötən ilin eyni dövrü ilə müqayisədə 4 faiz yüksəlib.**

2026-cı ilin ilkin təsdiq edilmiş büdcə parametrlərinin hesablanması zamanı neftin bir barelinin ixrac qiyməti 65 ABŞ dolları götürülüb. Demək, real qiymət proqnozu 45.4 faiz üstələyib.

Bu il dünyada neftin bahalaşması bir sıra münaqişələrin gərginləşməsi və Hörmüz boğazının bağlanması ilə izah edilir. Neftin qiymətindən fərqli olaraq hasilatı isə son illər azalır. 2009-cu ildə Azərbaycanda 50 milyon ton neft hasil edilib. Ötən il bu rəqəm 28 milyon tona düşmüşdü.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur